

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 58 (21.719)

*29 mart 2017-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 28-də Saatlı rayonuna səfərə gedib.

Dövlətimizin başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Saatlı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 28-də Saatlı rayonunda Heydər Əliyev Fondu tərəfindən inşa edilmiş 100 yerlik körpələr evi-uşaq bağçasının, yeni inşa edilən 110/35/10 kilovoltluq "Sarıcalar" yarımstansiyasının, Saatlı-Sarıcalar-Qara Nuru-Şirinbəyli-Fətəlikənd-Azadkənd avtomobil yolunun açılışlarında, Saatlı şəhərinin su təchizatı sistemlərinin istismara verilməsi mərasimində iştirak edib, Qıraqlı kəndi ərazisində fermer Humay Məmmədovanın pambıq sahəsi ilə tanış olub.

* * *

Martın 28-də Saatlıda pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirəsi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müşavirədə iştirak edib.

Dövlətimizin başçısı müşavirədə nitq söyləyib.




## "Əməkdar müəllim" fəxri adının verilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında təhsil sahəsində səmərəli fəaliyyətlərinə görə:

Hacıyeva Sevil Məhəmmədəli qızına

Hüseynova Nəsibə Novruz qızına **"Əməkdar müəllim"** fəxri adı verilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 28 mart 2017-ci il*

## 2017-ci ilin yanvar-fevral ayları üzrə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı



Muxtar respublikada 2017-ci ilin yanvar-fevral aylarında 332 milyon 643 min 300 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 0,9 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 3,9 faiz artaraq 740 manata çatmışdır.

* * *

Muxtar respublikada yaradılan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 164 milyon 647 min 700 manat həcmində məhsul istehsal edilmişdir ki, bu da 2016-cı ilin müvafiq dövründəki göstəricini 0,9 faiz üstələmişdir.

* * *

İnfrastruktur quruculuğu çərçivəsində 2017-ci ilin yanvar-fevral aylarında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 96 milyon 652 min 600 manat həcmində investisiya yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 0,3 faiz çoxdur. Əsas kapitala yönəldilmiş investisiyanın 88 milyon 988 min 400 manatı və ya 92,1 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

2017-ci ilin yanvar-fevral aylarında informasiya və rabitə xidmətlərinin həcmi 8 milyon 797 min 900 manat olmuşdur ki, bu da 2016-cı ilin müvafiq dövründəki xidmətlərin həcmi ilə müqayisədə 2,7 faiz çoxdur. Bu dövr ərzində mobil rabitə xidmətinin həcmi 7 milyon 217 min manat təşkil etmiş və bir il öncəyə nisbətdə 1,6 faiz artmışdır.

* * *

2017-ci ilin yanvar-fevral aylarında 13 milyon 982 min 800 manat həcmində kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur. Bu da 2016-cı ilin müvafiq dövründəki göstəricini 3,6 faiz üstələmişdir. Bu dövr ərzində muxtar respublika üzrə diri çəkidə 3443 ton ət, 4843,9 ton süd istehsal edilmiş, bir il öncəyə nisbətdə ət istehsalı 5,7 faiz, süd istehsalı 1,5 faiz artmışdır.

* * *

Əhali gəlirlərinin artımı davam edir. 2017-ci ilin yanvar-fevral aylarında muxtar respublikada əhalinin gəlirləri 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz artaraq 242 milyon 336 min 900 manat, onun hər bir nəfərə düşən həcmi isə 0,2 faiz yüksələrək 539,1 manat təşkil etmişdir.

* * *

2017-ci ilin yanvar ayında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 413,4 manat təşkil etmiş və bu göstərici 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 3,4 faiz artmışdır.

* * *

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir.

1 mart 2017-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 55312-yə çatmışdır ki, bunun da 46982-si və ya 84,9 faizi aktiv hesablardır. 2017-ci ilin yanvar-fevral aylarında açılmış 10077 bank hesabının 10063-ü aktiv hesablar olmuşdur.

Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 mart 2017-ci il tarixə 1223-ə çatdırılmışdır.

* * *

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmış, 2017-ci ilin yanvar-fevral aylarında muxtar respublikada 38 milyon 423 min 700 ABŞ dolları həcmində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın həcmi son bir il ərzində 1 faiz artaraq 36 milyon 676 min 800 ABŞ dolları, idxalın həcmi 50,1 faiz azalaraq 1 milyon 746 min 900 ABŞ dolları təşkil etmiş, 34 milyon 929 min 900 ABŞ dolları həcmində müsbət saldo yaranmışdır.

* * *

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmaqdadır. 2017-ci ilin yanvar-fevral aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 2 milyon 826 min 400 manat məbləğində kreditlər verilmişdir. Verilmiş kreditlərin 746 min 500 manatı və yaxud 26,4 faizi qısamüddətli, 2 milyon 79 min 900 manatı və yaxud 73,6 faizi uzunmüddətli kreditlər olmuşdur.

* * *

Qeyd olunan dövrdə muxtar respublikada bütün sığorta növləri üzrə daxilolmalar 776 min 200 manat təşkil etmişdir.

* * *

2017-ci ilin yanvar-fevral aylarında muxtar respublikaya 44 min 672 nəfər turist gəlmişdir ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 6,8 faiz və ya 2847 nəfər çoxdur.

* * *

1 fevral 2017-ci il tarixə muxtar respublikada əhalinin sayı bir il öncəyə nisbətdə 4638 nəfər və ya 1 faiz artaraq 449404 nəfər təşkil etmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

*Əlahiddə Ümumqoşun Ordusunda Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərində "Gənclərin çağırışaqədərki hazırlığı" fənnini tədris edən hərbi rəhbərlərin növbəti təlim-toplantısı başa çatıb.*

## Əlahiddə Ümumqoşun Ordusunda hərbi rəhbərlərin növbəti təlim-toplantısı başa çatıb



Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Təhsil Nazirliyi və Əlahiddə Ümumqoşun Ordusunun birgə təşkil etdiyi təlim-toplantıda əvvəlcə toplantıya cəlb edilmiş heyətin sıra hazırlığı yoxlanılıb. Fiziki hazırlıq dərsləri zamanı hərbi rəhbərlərə silahlı, silahsız və ikilikdə çalışmalar kompleksi, eləcə də sürət və güc çalışmaları əyani olaraq göstərilib.

Keçirilən dərslərdə diqqətə çatdırılıb ki, ölkəmiz müharibə şəraitində yaşayır. Ona görə də hərbi rəhbərlər şagirdlərdə hərb sənətinə maraq yaratmalı, gəncləri hərbi xidmətə yüksək səviyyədə hazırlamalıdırlar.

Təlim-toplantı çərçivəsində hərbi rəhbərlər Əlahiddə Ümumqoşun Ordusunun silahlanmasında olan silah və texnikaların təyinatı, taktiki-texniki xüsusiyyətləri ilə tanış olublar. Tanışlıq zamanı müxtəlif çaplı atıcı silahlar, snayper tüfəngləri, mühəndis-istehkam qurğuları, tank əleyhinə vasitələr, tanklar, piyadanın döyüş maşını və digər zirehli texnikalar, hava hücumundan müdafiə, rabitə və kəşfiyyat vasitələri, pilotsuz uçuş aparatları, hərbi tibbi yardım, yük və minik maşınları, minaatanlar, müxtəlif artilleriya qurğuları və topları, yaylım atəşli reaktiv artilleriya sistemləri hərbi rəhbərlərin marağına səbəb olub. Hərbi rəhbərlərin təlim-toplantısında kütləvi qırğın silahlarından mühafizə vasitələri də əyani şəkildə göstərilib.

Hərbi rəhbərlər silah və texnika ilə yanaşı, əsgərlərin qida rasionunda nəzərdə tutulan ərzaq təminatı ilə də tanış olublar.

Təlim mərkəzində müxtəlif təyinatlı atıcı silahlardan praktik atışlar icra edilib. Əl qumbaralarının atış çalışmaları yerinə yetirilib.

Hərbi rəhbərlərin 4 günlük təlim-toplantısı yekun tədbiri ilə başa çatıb.

Təlim-toplantının yekununda Əlahiddə Ümumqoşun Ordusunun komandanı, general-leytenant Kərəm Mustafayev çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə bütün tam orta məktəblərin hərbi rəhbərlərinə yeni geyim formaları və tam tədris bazası ilə təmin edilmiş ibtidai hərbi hazırlıq yeşikləri təqdim edilib.

General-leytenant Kərəm Mustafayev bir müddət əvvəl ehtiyatda olan zabitlərlə keçirilmiş hərbi yoxlama toplantısını xatırladaraq deyib ki, həmin toplantı zamanı yaxşı nəticə göstərmiş ehtiyatda olan zabitlərə növbəti hərbi rütbələr verilib. Onlardan biri də Şərur rayon Xələc kənd tam orta məktəbinin hərbi rəhbəri, baş leytenant Səbuhi Heydərov olub.

Tədbir zamanı kapitan hərbi rütbəsi Səbuhi Heydərova təqdim edilib.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov çıxış edərək təlim-toplantının əhəmiyyətini qeyd edib, hərbi rəhbərlərin bilik, bacarıq və peşəkarlıqlarının artırılmasının bundan sonra da diqqət mərkəzində saxlanılacağını bildirib. Həmçinin vurğulanıb ki, bu gün tam orta məktəblərimizdə şagirdlərin vətənpərvər ruhda yetişdirilməsinə xüsusi əhəmiyyət verilir. Ona görə də hər il yüzlərlə gənc Heydər Əliyev adına Hərbi Liseydə təhsil almaq üçün müraciət edir.

**Xəbərlər şöbəsi**

# Türkiyəli yüksəkixtisaslı həkimlərin iştirakı ilə elmi-praktik konfrans keçirilib

*Türkiyə Respublikasının Ankara şəhərində fəaliyyət göstərən Koru Xəstəxanasının yüksəkixtisaslı həkimlərinin bir qrupu Naxçıvan Muxtar Respublikasına gəlib. Səfərdə məqsəd səhiyyə və tibbi təhsil sahələrində qarşılıqlı əlaqələr yaratmaq və müasir tibbi biliklərin tətbiqi üçün təcrübə mübadiləsi aparmaqdan ibarətdir.*





Türkiyəli qonaqların iştirakı ilə martın 28-də Naxçıvan Muxtar Respublika Xəstəxanasında elmi-praktik konfrans keçirilib. Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Niyazi Novruzov son illər səhiyyə sahəsində qardaş ölkə ilə əlaqələrin inkişafından danışıb, bu əlaqələrin səhiyyə işçilərinin tibbi bilik və bacarıqlarının yüksəldilməsində mühüm əhəmiyyətindən bəhs edib. Nazir Koru Xəstəxanası və universiteti ilə də belə əlaqələrin yaradılması, naxçıvanlı həkimlərin, tibb təhsili alan tələbələrin bu səhiyyə müəssisəsində təkmilləşdirmə və ixtisasartırma kurslarına göndərilməsi üçün danışıqlar aparıldığını bildirib.

Qeyd olunub ki, belə əlaqələr zamanı səhiyyənin təşkili və aktual problemlərinə həsr olunmuş birgə elmi tədqiqatların aparılması, konfrans və seminarların keçirilməsi, eləcə də ali tibb mütəxəssislərinin davamlı professional təhsili sahəsində müasir metodik və elmi-praktik informasiyaların mübadiləsi nəzərdə tutulur.

Koru Xəstəxanası idarə heyətinin sədri, urologiya üzrə mütəxəssis, professor Hasan Biri rəhbərlik etdiyi xəstəxana haqqında məlumat verib. Qeyd edib ki, xəstəxana və onun nəzdindəki universitetdə müasir tələblərə cavab verən şərait, ən yüksək səviyyəli elektron cihaz və avadanlıqlarla təminat, tədrisdə qabaqcıl informasiya-kommunikasiya texnologiyalarının tətbiqi təcrübə keçən həkimlərin peşə vərdişlərinə yiyələnməsini, müasir endoskopik, mini-invaziv laparoskopik cərrahi metodları mənimsəmələrini təmin edir. Burada tədris prosesi ilə yanaşı, tibbi və bioloji elmlər sahəsində yeni biliklərin əldə edilməsi, perspektiv tibbi texnologiyaların işlənməsi və hazırlanmasına yönəlmiş kompleks fundamental və tətbiqi elmi tədqiqatlar da aparılır, qabaqcıl müalicə, diaqnostika və profilaktika üsulları aktiv tətbiq edilir.

Sonra Koru Xəstəxanasının həkimi Ali Özon "Hepatit viruslarının profilaktikası, yoluxma yolları və əks-epidemik tədbirlərin gücləndirilməsi", xəstəxananın medikal direktoru, ümumi cərrah uzmanı Bahadır Ege "Kolorektal xərçəng – yoğun bağırsaq xərçəngi" mövzularında məruzələr ediblər.

Konfransda videosüjetlər, müayinə və cərrahiyyə proseslərindən görüntülər nümayiş etdirilib, müzakirələr aparılıb, suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***



*Gənclər Fondu-5*

# Naxçıvanda gənclər hərtərəfli qayğı ilə əhatə olunub

***“Hər bir Azərbaycan gənci öz həyat yolunu müstəqil Azərbaycan Respublikasının gələcək yolu kimi qəbul etməlidir və öz həyatını qurarkən, özünü həyatda fəaliyyətə hazırlayarkən və fəaliyyətə başlayıb onu davam etdirərkən özü haqqında da düşünməlidir, ailəsi haqqında da düşünməlidir, ancaq hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir”.*** *Ümummilli lider Heydər Əliyevin bu müdrik fikirləri hər bir Azərbaycan gəncinin fəaliyyət istiqamətini müəyyənləşdirir. Ölkəmizə rəhbərliyinin bütün dövrlərində dahi rəhbərimiz sosial-iqtisadi, elmi-mədəni, təhsil və digər sahələrdə gənclərin fəal iştirakının təmin olunmasını diqqət mərkəzində saxlamışdır.*

Bu gün ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda gənclərin potensialından səmərəli istifadə olunur, onların sosial müdafiəsinin təmin edilməsi, yaradıcılıq axtarışlarının stimullaşdırılması, hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi və sağlam həyat tərzinin təbliği istiqamətində mühüm tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikasında da gənc nəsil hərtərəfli qayğı ilə əhatə edilmişdir. Son illər gənclərin yaradıcılıq potensialının inkişafı üzrə dövlət proqramı qəbul olunmuş, gənc istedadların “Qızıl kitabı” təsis edilmişdir. Dövlət gənclər siyasətinin tərkib hissəsi kimi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 29 mart tarixli Fərmanı ilə muxtar respublikada Gənclər Fondu yaradılmış, 2014-cü ilin aprel ayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Naxçıvan şəhərində Gənclər Mərkəzi istifadəyə verilmiş, Fondun fəaliyyəti təmin olunmuşdur.

Gənclər Fondu ötən 5 ildə fəaliyyətini muxtar respublikada tələbə-gənclərlə iş, onların asudə vaxtının səmərəli təşkil edilməsi, gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi, gənclərə yönəlik layihələrin reallaşdırılması, gənclər arasında müsabiqələrin, intellektual oyunların təşkil olunması, fəal gənclərlə görüşlərin keçirilməsi və digər istiqamətlərdə qurmuşdur.

Muxtar respublikamızda gənclərin hərbi-vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirilir. Ötən dövrdə Gənclər Fondu aidiyyəti qurumlarla birlikdə muxtar respublikamızın müxtəlif bölgələrində yerləşən hərbi hissələrdə gənclərin əsgər və zabitlərlə görüşlərini keçirmiş, müxtəlif incəsənət kollektivlərinin konsert proqramları təşkil olunmuşdur. Xalqımızın qəhrəmanlığı və azadlığı uğrunda mübarizənin ön plana çəkildiyi bədii və sənədli filmlərin gənclərə nümayiş olunması, vətənpərvərlik ruhlu teatr tamaşalarının göstərilməsi mühüm əhəmiyyətə malikdir. Ötən müddətdə hərbi-vətənpərvərlik tərbiyəsi istiqamətində keçirilən tədbirlərdə 6 mindən çox gənc iştirak etmişdir.

Muxtar respublika əhalisinin böyük bir hissəsini təşkil edən gənclərin əsas qismi ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan tələbə-gənclərdən ibarətdir. Bu amil nəzərə alınaraq tələbələrlə iş Gənclər Fondunun keçirdiyi bütün layihə və tədbirlərdə əsas götürülmüş, tələbələr arasında müxtəlif idman yarışları, mədəni tədbirlər, bilik yarışları, muzey ekskursiyaları təşkil olunmuşdur. Dünya Azərbaycanlılarının Həmrəylik Günü, Yeni il və Novruz bayramı münasibətilə muxtar respublikanın ictimai həyatında, yaradıcılıq sahəsində, təhsildə, dövlət qulluğunda, idman yarışlarında, həqiqi hərbi xidmətdə və digər sahələrdə fərqlənən 4 mindən çox gənclə görüşlər keçirilmiş, 600-dən artıq fəal gənc mükafatlandırılmışdır.

Hesabat dövründə Gənclər Fondu muxtar respublikamızda yaşayan istedadlı gənclərin üzə çıxarılması istiqamətində həyata keçirilən tədbirlərə uyğun olaraq gənclər arasında yaradıcılıq müsabiqələrinin keçirilməsini də daim diqqət mərkəzində saxlamışdır. Muxtar respublikada fəaliyyət göstərən kütləvi informasiya vasitələrinin əməkdaşları, ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri, tam orta məktəblərin şagirdləri, məhdud fiziki imkanlı gənclər arasında müxtəlif mövzularda keçirilən müsabiqələrdə 5 minə yaxın gənc iştirak etmiş, 400 gənc isə qalib seçilərək mükafatlara layiq görülmüşdür. Gənclərin təklif və təşəbbüsləri ilə hazırlanmış layihələrin həyata keçirilməsinə də xüsusi diqqət yetirilmişdir. Belə ki, 2 mindən artıq gəncin iştirak etdiyi “Naxçıvanı kəşf et”, “Unipsixoloji forum”, “Gənclərin aktivliyinə dəstək”, “Ekoloji mədəniyyət və ekoturizm”, “Mən Naxçıvanı tanıyıram”, “Zəka oyunları festivalı” və digər bir çox layihələr məhz gənclərin bilavasitə təşəbbüsü ilə reallaşdırılmışdır.

Ümumtəhsil məktəblərinin şagirdləri və Heydər Əliyev adına Hərbi Liseyin kursantları arasında inşa-yazı, rəsm müsabiqələri, intellektual oyunların keçirilməsi, onların muzeylərə, tarixi abidələrə səfərlərinin, Ağbulaq İstirahət Mərkəzində həftəsonu istirahətlərinin və yay məktəblərinin təşkil olunması, gənclərin elmi potensialının formalaşdırılması, eləcə də onların mütaliə vərdişlərinin və dünyagörüşünün artırılması sahəsində bir sıra layihələr həyata keçirilmişdir. “Naxçıvan: doğma diyar”,“Ümummilli lider Heydər Əliyev və Naxçıvan”,“Naxçıvan: müstəqillik illərində”,“Torpaq, uğrunda ölən varsa Vətəndir” adlı inşa-yazı müsabiqələri, “Hamımızın bir Vətəni var – bu, Azərbaycandır” silsiləsindən tam orta məktəblərin şagirdləri arasında “Xəmsə” intellektual oyunu, vətənpərvərlik mövzusunda şeir müsabiqələri, “Mənim yaradıcılığım” uşaq sərgisi, gənc alimlərin nümunəvi dərsləri və digər tədbirlər muxtar respublikanın tam orta məktəblərində təhsil alan şagirdlərin yaradıcılıq qabiliyyətinin inkişaf etdirilməsi, asudə vaxtlarının səmərəli təşkili, istedadlı yeniyetmə və gənclərin üzə çıxarılması baxımından xüsusi əhəmiyyət daşıyır.

Bununla yanaşı, sağlamlıq imkanları məhdud uşaqlara vətənpərvərlik hisslərinin aşılanması, onların psixoloji vəziyyətinin yüksəldilməsi və bu qrupdan olan istedadlı uşaqların üzə çıxarılması məqsədilə onlar arasında da müxtəlif vaxtlarda yazı, şeir, mahnı və rəsm müsabiqələri keçirilmişdir. Keçirilən tədbirlər bu kateqoriyadan olan yeniyetmə və gənclərin asudə vaxtlarının səmərəli təşkili və cəmiyyətə inteqrasiya edilməsində müəyyən rol oynamışdır. Heydər Əliyev adına Hərbi Liseydə təhsil alan kursantlarla da mütəmadi görüşlər keçirilmiş, onlar arasında şeir, inşa-yazı müsabiqələri, intellektual oyunlar təşkil olunmuşdur.

Gənclər Mərkəzində Gənclər Fondunun təşkilatçılığı ilə ingilis, rus və fransız dilləri üzrə hazırlıq kursları keçirilir. Müasir informasiya-kommunikasiya texnologiyaları və xarici dilin tədrisi üçün lazım olan avadanlıqlarla təmin edilmiş linqafon kabinələrində dövlət vəsaiti hesabına həyata keçirilən kurslarda müxtəlif sahələrdə təhsil alan və ya işləyən gənclərin iştirakı, xarici dilləri mənimsəməsi üçün hər cür şərait yaradılıb. 2014-cü ildən ötən müddət ərzində 323 gənc kurslarda iştirak etmiş, iştirakçılardan 96-sı sertifikasiya imtahanlarında müvəffəqiyyət qazanaraq sertifikatla təmin olunmuşdur. Bundan başqa, 22 muzey bələdçisi xarici dil kurslarına cəlb olunmuşdur. Hazırda kurslarda qeydiyyatdan keçmiş gənclərin sayı 1066 nəfərdir.

Gənclər Mərkəzində “Xəmsə” intellektual oyununun keçirilməsi üçün yaradılmış intellektual oyun zalından və istifadəyə verilmiş avadanlıqlardan səmərəli istifadə edilərək yeniyetmə və gənclərin iştirakı ilə mütəmadi olaraq “Nuh yurdu”, “Nə? Harda? Nə zaman?”, “Breyn Ring” intellektual oyunları keçirilmişdir. Gənclərin daha çox rəğbətini qazanmış “Nuh yurdu” intellektual oyunu üzrə muxtar respublikanın bütün rayon mərkəzlərində yeniyetmə və gənclər arasında birinciliklər keçirilmiş, Gənclər Mərkəzində isə muxtar respublika və zona çempionatları təşkil olunmuşdur. Onu da qeyd etmək lazımdır ki, yalnız musiqi mövzusunu əhatə edən “Lira” musiqili-intellektual oyunu və qeyri-hüquq fənlərində təhsil alan gənclər arasında hüquq fənləri üzrə “Nuh yurdu” intellektual oyunu da böyük maraq doğurmuşdur. Hesabat dövründə keçirilən intellektual oyunlarda muxtar respublikanın ali, orta ixtisas və tam orta məktəblərində, Heydər Əliyev adına Hərbi Liseydə təhsil alan, ümumilikdə, 10 mindən artıq yeniyetmə və gənc iştirak etmişdir.

Gənclər Fondu tərəfindən aidiyyəti təşkilatlarla birlikdə həyata keçirilən tədbirlərdən biri də gənclərin asudə vaxtının səmərəli təşkili və həftəsonu istirahətlərinin, yay məktəblərinin keçirilməsindən ibarət olmuşdur. 2013-cü ildən başlayaraq muxtar respublikamızda kənd turizminin tətbiq olunduğu ilk yaşayış məntəqəsi olan Ağbulaq İstirahət Mərkəzində gənclərin yay məktəbləri təşkil edilir. Ötən müddət ərzində Ağbulaq İstirahət Mərkəzində təşkil olunan həftəsonu istirahətləri və yay məktəblərində 2 mindən artıq gəncin istirahəti təmin olunmuşdur ki, onların da 200-ə qədəri sağlamlıq imkanları məhdud və aztəminatlı ailələrin uşaqları olmuşdur.

Muxtar respublikamızın turizm potensialının təbliği və tanıdılması qarşıda duran əsas vəzifələrdəndir. 2016-cı il martın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində turizmin inkişaf etdirilməsi ilə bağlı keçirilən müşavirədə qarşıya qoyulan vəzifələr bu sahədə yeni işlərin görülməsi üçün geniş şərait yaratmışdır. “Naxçıvanı tanıyaq” devizi altında gənclərin Naxçıvanqalaya, Duzdağ Fizioterapiya Mərkəzinə, Şahbuz Dövlət Təbiət Qoruğu və Batabat Astrofizika Rəsədxanasına, Əlincəqalaya, Ordubad rayonundakı muzey və tarixi abidələrə, Gülüstan türbəsinə, Qarabağlar türbəsinə və digər yerlərə səfərləri məhz bu məqsədə – muxtar respublikamızın tarixinin, eləcə də turizm potensialının gənclərə tanıdılması və onların iştirakı ilə təbliği məqsədinə xidmət etmişdir.

Gənclər arasında muxtar respublikanın turizm potensialının tanıdılması məqsədilə bilik olimpiadası, “Naxçıvanın turizm imkanları” mövzusunda fotomüsabiqənin keçirilməsi muxtar respublikanın turizm imkanlarının təbliği, turizm məkanlarının, tarixi abidələrinin tanıdılması baxımından əhəmiyyətli olmuş, bu istiqamətdə keçirilən tədbirlərdə mindən artıq gənc iştirak etmişdir.

Müasir dövrdə yeni texnologiyaların tətbiqi və informasiya mübadiləsinin çevik forması olan sosial şəbəkələrin getdikcə genişlənməsi gənclər qarşısında yeni fəaliyyət sahəsi açmışdır. Muxtar respublika gəncləri bu sahəyə nüfuz etməyi bacarmış, sosial şəbəkələrdə fəallığı xeyli artırmışlar. Gənclərimiz sosial şəbəkələrdən, əsasən, təbliğat vasitəsi kimi istifadəyə üstünlük verir, öz təcrübə və biliyini səmərəli informasiya mübadiləsinə yönəldir, internet resurslarında ölkəmiz, eləcə də muxtar respublikamız haqqında obyektiv və zəngin məlumat bazası yaratmağa çalışırlar. Gənclər Fondu tərəfindən muxtar respublikanın tarixi, mədəniyyəti, adət-ənənələri, turizm potensialı ilə bağlı hazırlanmış videoçarxların, fotoların və digər materialların sosial şəbəkələrdə yerləşdirilməsi də diqqətdə saxlanılmış, fondun sosial şəbəkə hesablarında (facebook, instagram, twitter, youtube) muxtar respublikamızla bağlı müxtəlif materialların yerləşdirilməsi təmin olunmuşdur. Bu günə qədər Gənclər Fondunun sosial şəbəkə hesablarında 9268 foto, 594 video, 357 məlumat olmaqla, cəmi 10 mindən çox material paylaşılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Dünyada Azərbaycan kimi ikinci bir dövlət göstərmək çətindir ki, müharibə şəraitində ola-ola, Naxçıvan kimi ikinci bir muxtar qurum tapmaq çətindir ki, blokada şəraitində yaşaya-yaşaya gəncliyin problemləri ilə bu qədər yaxından məşğul olsun”.***

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu bundan sonra da yaradılan şəraitdən səmərəli istifadə edərək öz işini qarşıya qoyulan tələblər səviyyəsində quracaq, gənclərin asudə vaxtlarının səmərəli təşkili, onların intellektual biliklərinin artırılması, layiqli vətəndaş kimi yetişmələri üçün zəruri tədbirləri davam etdirəcəkdir.*

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu***

# Sağlamlıq imkanları məhdud insanlar cəmiyyətin aktiv üzvünə çevrilir

***Sağlam cəmiyyət işıqlı və etibarlı gələcək vəd edir. Odur ki, öz millətinin gələcəyini düşünən, ölkəsinin müstəqilliyini möhkəmləndirməyə çalışan, bütün sahələrdə inkişafa nail olmaqla dünyada söz sahibinə çevrilmək istəyən dövlətlər və müdrik rəhbərlər sağlam cəmiyyət formalaşdırırlar. Belə bir cəmiyyətin qurulması üçün sağlam insanlar lazımdır. Ancaq bu da reallıqdır ki, cəmiyyətin bütün üzvləri sağlam olmurlar və məhdud fiziki imkanlı insanlardan heç bir cəmiyyət sığortalanmayıb. Sağlamlıq imkanları məhdud insanları cəmiyyətin aktiv üzvlərinə çevirmək isə Azərbaycan kimi sosialyönümlü siyasət yürüdən, insan amilinə yüksək dəyər verilən ölkələrdə qarşıya qoyulan əsas vəzifələrdəndir. Azərbaycanda bütün insanların yaxşı yaşaması, ölkəmizin inkişafına fayda verə bilməsi üçün sağlamlıq imkanları məhdud insanların problemlərinə həssaslıqla yanaşılır, onların qarşılaşdıqları çətinliklər dərhal aradan qaldırılır. Bu istiqamətdə Naxçıvan Muxtar Respublikasında həyata keçirilən tədbirlər xüsusilə diqqəti cəlb edir.***



Naxçıvanda mərhələ-mərhələ həyata keçirilən tədbirlər sağlamlıq imkanları məhdud insanların cəmiyyətin aktiv üzvünə çevrilməsi ilə nəticələnib. İlk mərhələdə bu kateqoriyadan olan şəxslərə insanların münasibətini dəyişmək lazım idi. Əlillik anadangəlmə də ola bilər, sonra da yarana bilər. İstənilən halda bu insanlar cəmiyyətin ayrılmaz hissəsidir. Onların reabilitasiyası, cəmiyyətə inteqrasiyası mühüm sosial vəzifələrdəndir. Sağlamlıq imkanları məhdud şəxslər də bizim insanlarımızdır. Bu kateqoriyadan olan şəxslər də təhsil almaq və işləmək, kimsəyə möhtac olmamaq istəyirlər.

Naxçıvan Muxtar Respublikasında 1996-cı ildən sağlamlıq imkanları məhdud insanların cəmiyyətə inteqrasiyası üçün görülən işlərin istiqaməti məhz belə idi. Düşünülmüş şəkildə həyata keçirilən tədbirlər bu kateqoriyadan olan insanlara münasibəti kökündən dəyişdi. Həm sağlam insanlar, həm də məhdud fiziki imkanlı şəxslərin özləri onların ölkəmizin inkişafına fayda verə biləcəyinə, cəmiyyətin fəal üzvünə çevriləcəyinə inandırıldı. Beləliklə, özlərini dörd divar arasına "həbs etmiş", həyatdan küsmüş, gələcəkdən heç bir gözləntisi olmayan, özünə inamını itirmiş sağlamlıq imkanları məhdud insanlar bu təhlükəli vəziyyətdən çıxaraq digər insanlarla qaynayıb qarışdılar, cəmiyyətin fəal üzvünə çevrilmək yoluna çıxdılar. Məhz bunun nəticəsi idi ki, məhdud fiziki imkanlı Mətanət Əhmədova "Şərq qapısı" qəzetinin 1997-ci il 28 may tarixli nömrəsində dərc olunan "Ümidsiz ürəklərdə inam yandırılanda" adlı məqaləsində yazırdı: "Həyat qəribədir. Adamların taleyi də müxtəlifdir. Hər bir insanın qismətinə, taleyinə düşən onun alın yazısıdır. Allahın yaratdığı bəndələr bəzən anadan doğulanda fiziki cəhətdən qüsurlu olurlar. Bu səbəbdən də qəlbi incik və kövrək insanlar üçün həyat o zaman mənalı və yaddaqalan olur ki, onlar cəmiyyət daxilində axtarılırlar. İlin müxtəlif vaxtlarında xalqın əbədi yaddaşına həkk olunan bayram mərasimlərində yada düşürlər. İstər ətraf mühitin, istərsə də insanların ağrılı nöqtələrini, cəhətlərini tapıb əlac etmək, onlara hayan durmaq, köməkdar olmaq hər kəsin qabiliyyəti və insanlıq borcu ola bilmir. Bəzən ürəksizlər, biganə və laqeydlər müxtəlif dərdə düçar olanları heç yadlarına belə salmırlar. Naxçıvan şəhərində yerləşən Gözdən Əlillər Cəmiyyətinə məxsus olan kiçik yataqxana kimsə tərəfindən, xüsusilə vəzifə sahibləri tərəfindən yada düşmürdü. 25 nəfərlik gözdən əlil ailəni təmsil edən yataqxana da bütün yaralı nöqtələr kimi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqətindən kənarda qalmadı. Gözlərdən uzaq, könüllərdən iraq olan yataqxana sakinlərinin dərd-sərini dinləmək, onlara kömək etmək üçün Ali Məclisin Sədri keçən ilin axırlarında yataqxanaya gəlmişdi. Bu gəliş kövrək ürəklərin küsüb getmiş inamını yenidən özünə qaytardı. Həyatda insanlara xoş ovqat bəxş etməyə qadir olan insanlar həmişə minnətdarlıq hissi ilə yad edilirlər".

"Şərq qapısı"nın 1990-cı illərin ortalarında çap edilmiş nömrələrini vərəqlədikcə belə tədbirlərin tez-tez keçirildiyinin, sağlamlıq imkanları məhdud insanlarla görüşlərdə onların cəmiyyətin ayrılmaz hissəsi olduğunun xüsusi vurğulandığının şahidi oluruq. Bu kateqoriyadan olan şəxslərlə keçirilən görüşlərdə ölkəmizin inkişafı üçün onlara da ehtiyac duyulduğu barədə fikirlərin səsləndirilməsi sağlamlıq imkanları məhdud insanların özlərinə olan inamını artırıb.

Sonrakı mərhələdə məhdud fiziki imkanlı insanların yaşayış şəraitinin yaxşılaşdırılması, onların reabilitasiyası istiqamətində ardıcıl tədbirlər görülüb. Sağlamlıq imkanları məhdud şəxslər üçün yaşayış binaları, fərdi mənzillər tikilib, bu kateqoriyadan olan insanların reabilitasiyası məqsədilə müasir avadanlıqlarla təchiz olunmuş Naxçıvan Əlillərin Bərpa Mərkəzi və Uşaq Bərpa Mərkəzi istifadəyə verilib. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən aldığımız məlumata görə, son 20 ildə muxtar respublikada 211 sağlamlıq imkanları məhdud insan mənzillə, 456 məhdud fiziki imkanlı şəxs isə minik avtomobili ilə təmin olunub. Hər il sağlamlıq imkanları məhdud insanların xarici ölkələrə müalicəyə göndərilməsi, onların iştirakı ilə müxtəlif tədbirlərin keçirilməsi məhdud fiziki imkanlı şəxslərin cəmiyyətə inteqrasiyasında mühüm rol oynayıb.

Mənzil-məişət şəraiti yaxşılaşdırılan, sağlamlığı qismən bərpa olunan, özünə inamı artan məhdud fiziki imkanlılar artıq təhsil almaq və işləmək istəyirdilər. Dövlətin də istədiyi məhz bu idi. Çünki istənilən fərdin cəmiyyətə fayda verə bilməsi üçün təhsilli olması əsas şərtlərdəndir. Söhbət ali təhsil almaqdan getmir. Hansı sahədə çalışmağından asılı olmayaraq, yazıb oxumağı bacarmalı, bir peşəyə yiyələnməlisən. Odur ki, sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi istiqamətində ardıcıl tədbirlər görülüb. Fiziki imkanları orta məktəblərdə təhsil almağa imkan verən uşaqlar ümumtəhsil məktəblərinə cəlb olunub. Orta məktəblərə gedə bilməyən uşaqlar üçün isə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzi yaradılıb. Bu barədə bir az sonra. Əvvəlcə Regional İnformasiya Mərkəzi barədə qısa məlumat verək.

"Fiziki imkanları məhdud olan uşaqlar burada oxuyacaqlar. Onlar cəmiyyətdən kənarda qalmayacaqlar. Azərbaycanda elə şərait yaradılmalıdır ki, bütün vətəndaşlar onların fiziki imkanlarına baxmayaraq, ondan asılı olmayaraq, cəmiyyətdə öz yerini tuta bilsin". Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2010-cu il oktyabrın 5-də Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin açılış mərasimində söylədiyi bu fikirlər hər bir vətəndaşın taleyi üçün cavabdeh olan dövlət başçısının bu kateqoriyadan olan şəxslərə xüsusi diqqətinin təzahürüdür. Azərbaycan Prezidenti ölkənin əsas düşüncə mərkəzlərindən biri olan Naxçıvanda bu fikirləri səsləndirməklə sürətlə inkişaf edən qədim diyarımızın bu sahədə də nümunə olduğunu ifadə etmişdi. Ötən illərin təcrübəsi göstərir ki, Naxçıvan Muxtar Respublikasında bu sahədə nəinki müasir təcrübə tətbiq edilir, hətta Naxçıvanda sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası istiqamətində həyata keçirilən işlər bir model kimi qəbul olunur. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində yaradılan şərait, tətbiq olunan yeniliklər, sağlamlıq imkanları məhdud insanların istifadəsinə verilən xidmətlər belə deməyə əsas verir. Mərkəzdə görmə və eşitmə qabiliyyəti məhdud şəxslərə xüsusi proqram təminatı əsasında audio və elektron kitabxana xidmətinin göstərilməsi, görmə qabiliyyəti məhdud insanlar üçün brayl yazı sisteminin və kompüterin tədrisi kurslarının təşkili onların öyrənməsinə, cəmiyyətə inteqrasiya olunmasına xidmət edir. Bundan başqa, mərkəzdə autizm və digər sindromlu uşaqlar, habelə bədənini koordinasiya edə bilməyən, ünsiyyət qurmaqda çətinlik çəkən məhdud fiziki imkanlı uşaqlar üçün kinekt oyunları otağı da yaradılıb. Burada Defektologiya bölməsinin yaradılmasında məqsəd zehni inkişafı ləngiyən və nitq qüsurları olan uşaqların reabilitasiyasına nail olmaqdır. Mərkəzdə yaradılan əmək terapiyası otağında uşaqlar tikmə-biçmə, kəsib yapışdırma, quraşdırma işləri ilə məşğul olur, rəsm çəkirlər. Bu, sağlamlıq imkanları məhdud uşaqların əmək qabiliyyətinin inkişafına, əqli cəhətdən geri qalanların sağlamlıqlarının bərpasına öz təsirini göstərir. Bir sözlə, Naxçıvan Regional İnformasiya Mərkəzi bu kateqoriyadan olan insanların təhsil almasında, öyrənməsində, sağlamlığının bərpasında mühüm rol oynayır. Bütün bunlara sistemli şəkildə həyata keçirilən tədbirlərlə, bu sahədə qəbul edilən dövlət proqramlarının uğurlu icrası nəticəsində nail olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq olunan "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı"nın icrası nəticəsində onların təhsilə cəlbi sistemli xarakter alıb, inklüziv təhsil üçün əsaslı zəmin hazırlanıb. Proqramın icrası dövründə sağlamlıq imkanları məhdud 124 uşaq məktəbəqədər, 140 uşaq ümumtəhsil müəssisələrinin 1-ci siniflərinə, 417 uşaq isə musiqi məktəblərinə, məktəbdənkənar təhsil müəssisələrinə və idman qruplarına cəlb edilib. Proqrama uyğun olaraq hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən ümumtəhsil məktəblərinə gedə bilməyən uşaqlar üçün Distant Tədris Mərkəzi yaradılıb. Mərkəzdə server və çevirici avadanlıqlar, tədris sinfində elektron lövhə, kompüter, smart kamera, monitor və digər texniki avadanlıqlar, distant tədrisə cəlb olunmuş uşaqların yaşadığı mənzillərdə isə asinxron rəqəmsal abunəçi avadanlığı, noutbuk və veb-kameralar quraşdırılıb. 150 nəfər sağlamlıq imkanı məhdud uşağın qoşulması mümkün olan mərkəzdə hazırda 24 uşaq distant dərslərə cəlb edilib.

Məhdud fiziki imkanlı uşaqların sosial reabilitasiyası sahəsində həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsi, onların təlimində mütərəqqi üsulların tətbiqi, bu istiqamətdə kadr hazırlığının gücləndirilməsi yeni proqramın qəbul olunmasını şərtləndirirdi. Ona görə də Ali Məclis Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı" qəbul edilib. Ötən dövr ərzində proqramın uğurlu icrası sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyasına, onların təhsilində müasir üsulların tətbiqinə stimul verib, müvafiq pedaqoji kadrların hazırlanmasına şərait yaradıb, sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbinin davamlılığını təmin edib, inklüziv və məsafədən (distant) təhsil imkanlarını artırıb. Dövlət proqramına uyğun olaraq sağlamlıq imkanları məhdud uşaqların sosial reabilitasiyasında müasir üsullar tətbiq edilir, bu kateqoriyadan olan uşaqların müasir informasiya texnologiyalarından istifadə imkanları artırılır.

Sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi istiqamətində görülən işlər barədə bu sətirləri yazarkən mərhum jurnalist həmkarımız Səxavət Kəngərli ilə olan söhbətimiz yadıma düşdü. Ustad jurnalistimiz danışırdı ki, ötən əsrin 90-cı illərinin ortalarında belə uşaqlar haqqında məqalə hazırlamaq üçün görüşdüyüm 13 yaşlı Sabirlə olan qısa dialoqumuzu heç vaxt unutmadım. Sabir hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən məktəbə gedə bilmirdi. O zaman nə qədər çalışsaq da, haqqında yazı hazırlamağımıza, fotoşəklini çəkməyimizə razılıq vermədi:

– Xahiş edirəm mənim haqqımda heç nə yazmayın.

– Niyə? Qəzetdə özünü görmək istəmirsən?

– Mən o yazını sərbəst oxuya bilməyəcəyəm. Ona görə də narahat olacağam. Xahiş edirəm məni incitməyin.

O, bu sözləri deyəndən sonra öz otağına keçdi və bir daha bizimlə görüşmək istəmədi.

Səxavət Kəngərli ilə söhbətimizin bu hissəsini olduğu kimi qeyd dəftərçəmə köçürmüşdüm: "Oxumaq həvəsi ilə alışıb yanan, həyatdan küsmüş bu uşağın qapının arxasından söylədiyi son sözlərdən sonra özümü saxlaya bilmədim, gözlərim doldu: "Gedin sağlam insanlardan yazın. Biz kimin nəyinə lazımıq ki". "Şərq qapısı"nın dünənki sayında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi istiqamətində görülən işlər barədə yazını oxuyarkən bu hadisə yadıma düşdü və yenə gözlərim doldu. Amma budəfəki sevinc göz yaşları idi. Dövlətimizin böyük diqqət və qayğısı ilə belə uşaqlar artıq təhsilə cəlb olunub".

Bu hadisədən, təqribən, 20 il sonra hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən məktəbə gedə bilməyən, buna görə də distant dərsə cəlb edilən, Səxavət Kəngərlinin ürəkağrısı ilə mənə danışdığı Sabirlə eyni yaşda olan Babək rayonunun Aşağı Uzunoba kənd sakini Rauf Hüseynov "Şərq qapısı" qəzetinin əməkdaşına həvəslə deyir: "Bu il üçüncü sinfi əla qiymətlərlə başa vuracağam. Müəllimimi, mənimlə birlikdə dərs keçən uşaqları çox istəyirəm. Gün ərzində zəng edib onlarla söhbət edir, hamısı ilə əlaqə saxlayıram. Çox sevinirəm ki, məktəbə gedə bilməsəm də, hamı kimi oxuyub bir peşəyə yiyələnəcəyəm".

Naxçıvan Muxtar Respublikasının qısa zaman kəsiyində əldə etdiyi böyük nailiyyətlərdən biri budur: hər bir insanımızın cəmiyyət üçün yararlı vətəndaşa çevrilməsi.

Naxçıvan sağlamlıq imkanları məhdud insanların təhsilə cəlbi sahəsində böyük bir yol keçib. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, görmə qabiliyyəti məhdud Elməddin Kərimov kimi hətta magistr təhsili alan sağlamlıq imkanları məhdud insanlarımız da vardır.

Yuxarıda xatırlatdığımız "Ümidsiz ürəklərdə inam yandırılanda" adlı məqalədə müəllif sağlamlıq imkanları məhdud insanlara diqqətsizlikdən, onların bayram günlərində yada salınmamasından gileylənirdi. İndi bayram günlərində onlar nəinki yada salınır, hətta bayram tədbirləri sağlamlıq imkanları məhdud insanların iştirakı ilə təşkil olunur. Bu il də Novruz bayramı ərəfəsində məhdud fiziki imkanlı şəxslərlə görüşlər keçirilib, hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən tədbirlərdə iştirak edə bilməyən şəxslərə evlərdə baş çəkilib, onlara bayram sovqatı verilib. Bayram tədbirlərində, ümumilikdə, məhdud fiziki imkanlı 1000 nəfərə sovqat təqdim edilib.

Sağlamlıq imkanları məhdud insanların işlə təminatı da daim diqqət mərkəzində saxlanılır. Onların özünüməşğulluğunun təmin olunması üçün sosial layihələr həyata keçirilir. Bu kateqoriyadan olan şəxslərin sosial reabilitasiyası məqsədilə peşə hazırlığı kurslarına cəlbi də xüsusi diqqət yetirilən məsələlərdəndir. Son illər 540-dan çox sağlamlıq imkanı məhdud şəxs peşə hazırlığı kurslarına cəlb olunub, işlə təmin edilib.

Məhdud fiziki imkanlı insanların sosial reabilitasiyasında onların idmana cəlb edilməsi də mühüm rol oynayır. Artıq 11 ildir ki, fəaliyyət göstərən Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyası sağlamlıq imkanları məhdud insanların idmanla məşğul olmasına öz töhfəsini verir. Hər il sağlamlıq imkanları məhdud insanlar arasında keçirilən yarışlar onların idmana kütləvi cəlbinə şərait yaradır. Bu sahədə görülən işlərin nəticəsi isə göz qabağındadır. Artıq Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının yetirmələri sırasında Hüseyn Həsənov kimi Paralimpiya Oyunlarının qalibi də vardır.

*Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud insanların tibbi və sosial reabilitasiyası istiqamətində görülən işlər artıq öz bəhrəsini verir, onlar cəmiyyətin aktiv üzvünə çevrilirlər.*

**Tural SƏFƏROV**



***Muzeylər tariximizin, milli dəyərlərimizin yaşadılaraq gələcək nəsillərə ötürülməsində əsas vasitələrdən biridir. Ona görə də muxtar respublikamızda belə mədəniyyət müəssisələrinin şəbəkəsi genişləndirilir, onların normal fəaliyyətinə şərait yaradılır, ekspozisiyasının zənginləşdirilməsi və iş fəaliyyətinin gücləndirilməsi istiqamətində tədbirlər görülür.***

## Görkəmli pedaqoqun xatirəsinin əbədiləşdirilməsinə, yaradıcılığının gələcək nəsillər tərəfindən öyrənilməsinə və təbliğinə xidmət edən muzey





Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Görkəmli maarifçi Məhəmməd Tağı Sidqinin ev-muzeyinin yaradılması haqqında” 17 sentyabr 2014-cü il tarixli Sərəncamı ilə yaradılan muzey bu istiqamətdə həyata keçirilən tədbirlərdən biridir. Sərəncama əsasən, Ordubad şəhərində muzey üçün yeni bina inşa edilib, lazımi avadanlıqlar və eksponatlarla təmin olunub.

Muzeyin ekspozisiya zalındayam. Ümummilli liderimizin ilk baxışdan diqqəti cəlb edən aşağıdakı fikirlərini oxuyuram: “Naxçıvanda təhsilin, ümumiyyətlə, mədəniyyətin inkişafında mütəfəkkir Məhəmməd Tağı Sidqinin böyük rolu olmuşdur”.

Diqqəti çəkən bir başqa eksponat isə Hüseynqulu Əliyevin Məhəmməd Tağı Sidqinin kətan üzərində yağlı boya ilə çəkdiyi portretidir. Bununla yanaşı, Səyyad Bayramovun çəkdiyi “Məktəb yollarında”, “Sidqi və Naxçıvanda teatr” adlı rəsm əsərləri də görkəmli pedaqoqa böyük ehtiramın ifadəsidir.

Ekspozisiyanın ilk guşəsində Məhəmməd Tağı Sidqinin tərcümeyi-halı yerləşdirilib. Tərcümeyi-halda qeyd olunur ki, görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqi 1854-cü il martın 22-də Ordubad şəhərində anadan olub. İlk təhsilini Molla Məhəmməd Tağı adlı axundun məktəbində alıb, daha sonra təhsilini Hüseyn Soltan mədrəsəsində davam etdirməklə klassik Şərq poeziyasını və fəlsəfəsini, eləcə də ərəb və fars dillərini öyrənib. O, maarifçilik fəaliyyəti dövründə məktəbdarlıq, ədəbiyyat, teatr və mətbuat sahələrində əvəzsiz xidmətlər göstərib. 1892-ci ildə Ordubadda “Əxtər” adlı yeni üsullu məktəbin əsasını qoyaraq maarifçilik fəaliyyətinə başlayıb. Bu məktəb az bir zamanda Ordubad camaatı arasında böyük nüfuz qazanıb.

Muzeydə Məhəmməd Tağı Sidqinin yaratdığı “Əxtər” və “Tərbiyə” məktəblərinin fotoşəkilləri, bu böyük maarifçinin məktəb haqqında fikirləri də nümayiş etdirilir.

Ekspozisiyada Məhəmməd Tağı Sidqinin qızıldan hazırlanmış çərçivələrdə qiymətli kəlamları sərgilənir: “Səbir bir ağacdır, onun kökü acı, amma meyvəsi dadlıdır”, “Dünyada yaxşılıqdan gözəl şey yoxdur. Amma yaxşılığa layiq olanları axtarıb tapmaq ondan da yaxşıdır”, “Elm bir çox kitabları oxuyub-yazmaqdan ibarət deyil, oxuduqca anlamaqdan ibarətdir”.

Azərbaycan maarif və məktəbdarlığının inkişafı tarixində Sidqinin göstərdiyi misilsiz xidmətlər yalnız təsis etdiyi məktəblərlə bitmir. O, “Tərbiyə” məktəbinin müdiri və müəllimi olduğu müddətdə “Heykəli-insana bir nəzər”, “Kəblə Nəsir”, “Məsnəviyyati-mədəniyyət”, “Həkimanə sözlər”, “Yüz il yatandan sonra” kimi ictimai-siyasi, fəlsəfi, etik, elmi-pedaqoji əsərlər, “Nümuneyi-əxlaq”, “Coğrafiya xüsusunda məlumati-mücmələ”, “Tənviri-əfkar və təhfimi-insaniyyət”, “Töhfeyi-bənat” kimi dərsliklər yazıb.

Görkəmli pedaqoqun müəllifi olduğu və hazırda AMEA Əlyazmalar İnstitutunda saxlanılan yeddi dərsliyin əlyazmalarının fotosurətləri, “Kəblə Nəsir” əsərinin üz qabığı muzeydə nümayiş olunan qiymətli eksponatlar sırasındadır.

Sidqi həmçinin Azərbaycan maarifçi-realist ədəbiyyatının, o cümlədən Naxçıvan teatrının ilk yaradıcılarından biri kimi də tanınıb. Ekspozisiyada onun müəllim və teatr rejissoru kimi fəaliyyət göstərdiyi dövrə aid müxtəlif protokol və raportların fotosurətlərinə, rejissorluğu ilə hazırlanmış, müxtəlif illərdə Naxçıvan teatrında səhnəyə qoyulmuş tamaşaların siyahısına da rast gəlirik. Buradan öyrənirik ki, Sidqinin rejissorluğu ilə 1890-1903-cü illərdə Mirzə Fətəli Axundovun “Müsyö Jordan və Dərviş Məstəli şah”, “Molla İbrahimxəlil kimyagər”, “Hacı Qara”, Əbdürrəhim bəy Haqverdiyevin “Dağılan tifaq”, “Pəri cadu”, Eynəlibəy Sultanovun “Tatarka” əsərləri uğurla səhnələşdirilib.

Muzeydə Sidqinin yetirmələrinə də yer ayrılıb. Burada Rza Təhmasib, Əziz Şərif, İbrahim Əbilov, Hüseyn Cavid, Rzaqulu Nəcəfov, Məmməd Səid Ordubadi kimi Azərbaycan ədəbiyyatı və mədəniyyətinin önəmli simalarının fotoşəkilləri nümayiş etdirilir.

Eksponatlar arasında bir məktubun mətni diqqətimizi çəkir. Bələdçinin məlumatına görə, 1903-cü ilin dekabrında Sidqi Kəngərli rayonunun Qarabağlar kəndində vəfat edib və onun ölümündən sonra ailəsi böyük çətinliklərlə yaşayıb. Bu məktub isə həmin zamanlarda Sidqinin həyat yoldaşı İsmət Səfərovanın 28 dekabr 1903-cü ildə Naxçıvan rus-tatar məktəbinin direktoruna yazdığı məktubdur.

Sidqinin həyat və fəaliyyətinə həsr olunmuş qəzet materialları, elmi əsərlər və tədqiqat materialları, rəsm əsərləri, kitablar da muzeydə nümayiş olunur. “Naxçıvan” ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnalının 2004-cü il tarixli 12-ci nömrəsi görkəmli pedaqoqun 150 illiyinə, 2014-cü il tarixli 29-cu nömrəsi isə 160 illiyinə həsr olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqinin 160 illik yubileyinin keçirilməsi haqqında” 20 avqust 2014-cü il tarixli Sərəncamına əsasən görkəmli pedaqoqun 160 illik yubileyi muxtar respublikada geniş qeyd olunub. Sərəncamda deyilir: “Görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqi realist ədəbiyyatın inkişafında, məktəb, teatr və mətbuat sahəsində əvəzsiz xidmətlər göstərmişdir. Onun yaratdığı məktəblər Azərbaycanda təhsilin, əsərləri isə maarifçi düşüncənin və ədəbiyyatın inkişafında mühüm rol oynamışdır. Böyük pedaqoq Məhəmməd Tağı Sidqinin maarifçilik hərəkatının inkişafı naminə xidmətləri öz dövründə olduğu kimi, bu gün də aktuallığını qoruyub saxlamaqdadır”.

Qeyd edək ki, muxtar respublikada görkəmli pedaqoqun adının əbədiləşdirilməsi istiqamətində də bir sıra işlər görülüb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 11 mart 2004-cü il tarixli Sərəncamına əsasən, Naxçıvan Dövlət Kukla Teatrına görkəmli pedaqoqun adı verilib. Naxçıvan şəhər 4 və Ordubad şəhər 1 nömrəli tam orta məktəblər də Məhəmməd Tağı Sidqinin adını daşıyır.

Azərbaycan xalqı cəmiyyətin inkişafı naminə fədakarlıq göstərən heç kəsi unutmur. Onların şərəfinə nəğmələr qoşulur, şeirlər, kitablar yazılır, məktəblər, muzeylər inşa olunur. Məhəmməd Tağı Sidqi də belə simalardan biridir. Onun ev-muzeyini hər gün onlarla insan ziyarət edir. Ziyarətçilər bu muzeyin qapısından çıxarkən görkəmli sima haqqında kifayət qədər məlumata yiyələnmiş olurlar. Elə muzeyin yaradılmasında məqsəd də bu olub: insanlara, gələcək nəsillərə Məhəmməd Tağı Sidqi yaradıcılığını aşılamaq. Yaradılan bu şəraitə qarşılıq olaraq bizim edəcəyimiz isə çox sadədir. Vaxt tapdıqca belə müəssisələrə üz tutub nəsə öyrənmək. Unutmayaq: vətənpərvərlik mənsub olduğun xalqın tarixini, mədəniyyətini bilməklə başlayır.

✍ **Fatma BABAYEVA**

## Rəsm müsabiqəsinin qalibləri mükafatlandırılıb

*Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında 31 mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr edilən rəsm müsabiqəsinin qaliblərini mükafatlandırma mərasimi olub.*



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin birgə təşkil etdiyi rəsm müsabiqəsinin mükafatlandırma mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva 1918-ci ilin mart-aprel aylarında Bakı şəhərində, eləcə də Bakı quberniyasının müxtəlif bölgələrində, o cümlədən Naxçıvan, Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ və digər ərazilərdə daşnak erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı törətdikləri kütləvi qırğınlar barədə danışıb.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin şöbə müdiri Nicat Babayev çıxışında bildirib ki, ermənilər son iki əsrdə öz havadarlarının köməyi ilə xalqımıza qarşı davamlı olaraq soyqırımı siyasəti həyata keçiriblər. Məkrli ermənilərin 1918-ci ildə respublikamızda soydaşlarımızı qətlə yetirərək etnik təmizləmə siyasəti həyata keçirməsinin əsl mahiyyəti ulu öndər Heydər Əliyevin “Azərbaycanlıların soyqırımı haqqında” 1998-ci il 26 mart tarixli Fərmanında açılıb. Ermənilərin Azərbaycan xalqına qarşı apardıqları soyqırımı siyasəti dərindən təhlil edilib və ona ilk dəfə siyasi qiymət verilib. Azərbaycan tarixinə işıq salan bu tarixi sənədə uyğun olaraq hər il ölkəmizdə martın 31-i Azərbaycanlıların Soyqırımı Günü kimi yad olunur.

Nicat Babayev bu cür müsabiqələrin keçirilməsinin gənclərdə vətənpərvərlik hissinin gücləndirilməsi istiqamətində atılan vacib bir addım olduğunu bildirib.

Sonra müsabiqənin qalibləri mükafatlandırılıb.

Müsabiqənin yekun nəticəsinə görə ali təhsil müəssisələrinin tələbələri arasında I yerə Naxçıvan Dövlət Universitetinin(NDU) tələbəsi Nigar Məhərrəmova, II yerə “Naxçıvan” Universitetinin tələbəsi Emil Abbasov, III yerə isə NDU-nun tələbəsi Fəxriyyə Qədimbəyli layiq görülüblər.

Orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında I yerə Heydər Əliyev adına Hərbi Liseyin kursantı Naib Qənbərov, II yerə Naxçıvan Musiqi Kollecinin tələbəsi Sevgili Qasımova, III yerə isə Naxçıvan Tibb Kollecinin tələbəsi Eldar İbrahimov layiq görülüblər.

Sonra müsabiqə iştirakçılarının rəsm əsərlərindən ibarət sərgiyə baxış olub.

**Xəbərlər şöbəsi**

## Naxçıvanda Azərbaycan çempionatının final mərhələsinə start verilib



***Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində voleybol üzrə kişilər arasında Azərbaycan çempionatının yüksək liqasında final mərhələsinin oyunlarına start verilib.***

Bu mərhələdə çempionatın turnir cədvəlində ilk 4 pillənin sahibləri – “Neftçi”, “Lokomotiv”, MOİK və “Naxçıvan” komandaları mübarizə aparırlar. Üç gün davam edəcək final mərhələsinin oyunları reqlamentə əsasən dairəvi sistem üzrə keçiriləcək. Martın 30-da isə 2016-2017-ci illər mövsümünün çempion komandasının adı məlum olacaq.

Dünən final mərhələsinin ilk oyunları keçirilib. Oyunlardan öncə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Meydana ilk olaraq “Neftçi” və MOİK komandaları çıxıb. Pley-off mərhələsində heyətinə “əl gəzdirən” MOİK komandası yenə məğlubiyyətdən yaxa qurtara bilməyib. Daha üstün oyun nümayiş etdirən “Neftçi” hər üç setdə 25:20, 25:21 və 25:12 hesabı ilə qalib gələrək bu mərhələdə ilk qələbəsini qazanıb.

Aleksandr Çornının rəhbərlik etdiyi “Naxçıvan” komandası pley-off-un ilk oyununda “Lokomotiv” komandası ilə üz-üzə gəlib. İlk setdə rəqibinə məğlub olan komandamız (25:12) ikinci setdə də eyni aqibətlə üzləşib – 25:22. Son setdə daha üstün oyun sərgiləyən “Lokomotiv” meydanı 3:0 hesablı qələbə ilə tərk edib.

Qeyd edək ki, final mərhələsində bu gün daha iki oyun keçiriləcək. Saat $15^{00}$-da “Neftçi” “Lokomotiv”lə, $17^{30}$-da isə “Naxçıvan” MOİK-lə qarşılaşacaq.

✍ **Ceyhun MƏMMƏDOV**

### İtmişdir

Naxçıvan şəhərinin Qaraçuq kəndində yaşamış Səfərova Nabat Məhəmməd qızının adına verilmiş $210^{A}$ inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 252